Tarix və onun problemləri, №1-2 2009

**AQIL TAĞIYEV**
*ADPU*

# DÜNYA AZƏRBAYCANLILARININ BIRLIYININ TƏMIN OLUNMASINDA AZƏRBAYCAN RESPUBLIKASININ ROLU

Dünya birliynin bərabər hüquqlu üzvü olduqdan sonra Azərbaycan diasporunun dövlətimiz ətafında birləşərək, vahid mərkəzdən idarə olunmasına geniş şərait yarandı.

Dünyanın müxtəlif dövlətlərinə səpələnmiş həmvətənlərimizin bir diaspor kimi formalaşması, təşkilatlanması və Vətənimizin inkişafı naminə yaşadıqları ölkələrdə doğma xalqımızın, Dövlətimizin milli maraqlarının müdafiəsi sahəsində məqsədyönlü şəkildə öz fəaliyyətlərini qurması məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən 31 dekabrı ilk dəfə olaraq Dünya Azərbaycanlılarının həmrəylik və milli birlik bayramı elan etmiş, sonra isə bu tarixi bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının milli bayramına çevirmişdir. 1991-ci ildən etibarən hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi keçirilməsi dövlətimizin diasporumuza olan diqqətin bariz nümunəsidir.(1)

O zamandan dünya azərbaycanlılarını müstəqil Azərbaycan Dövlətinin ətrafında sıx birləşdirməklə dünya miqyasında Azərbaycan həqiqətlərini yaymaq, qürbət ellərdə Vətənimizi təmsil edən bu insanların həmrəyliyini və milli birliyini yaratmaq, eyni zamanda onların qüvvəsindən, imkanlarından səmərəli istifadə etmək mümkün oldu.

Prezident İlham Əliyevin bu istiqamətdə apardığı iş, ümummilli lider H.Əliyev kursunun davamıdır və onun parlaq dövlətçilik təcrübəsinə əsaslanan prezident bununla əlaqədar bəyan edir ki: "dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə, xalqımızın yeganə milli dövləti ilə əlaqələrinin möhkəmləndirilməsi, bu əlaqələrin hüquqi və mədəni-mənəvi əsaslarının gücləndirilməsi onun qarşısında duran mühüm vəzifələrdən biridir. Hər bir azərbaycanlı dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Azərbaycan Dövlətinin, xalqının problemləri ilə yaşamalı, onların həlli üçün əlindən gələni etməlidir. Eyni zamanda, Azərbaycan hökuməti də Dövlətin maddi və mənəvi imkanlarından bütün Dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların milli və vətəndaş hüquqlarının qorunması üçün istifadə etməlidir".(2, s. 19)

Azərbaycan xalqının etnik, sosial-siyasi maraqlarını bu gün birinci növbədə, Azərbaycan Respublikası təmsil edir- hər şeydən əvvəl, ona görə ki, Azərbaycan Respublikası Azərbaycan xalqının milli, müstəqil dövlət yaratmaq əzminin məhsuludur. Yalnız həmin respublikanın vətəndaşları deyil, həmhüdud ölkələrdə tarixən məskunlaşmış azərbaycanlılar—əsasən Azərbaycan türkləri də ona öz milli dövlətçilik ideallarının ifadəçisi və müdafiəçisi kimi baxırlar. Müxtəlif səbəblər üzündən dünyanın ən müxtəlif ölkələrinə səpələnmiş Şimaldan və Cənubdan olan azərbaycanlılar üçün də Azərbaycan dövləti və onun rəmzləri müqəddəsdir.

Odur ki, dünya azərbaycanlılarının əsas sosial-siyasi və milli-mənəvi vəzifələrindən biri yeganə müstəqil Azərbaycan dövlətini hər hansı halda müdafiə edib qorumaqdan, onun ətrafında sıx birləşməkdən ibarətdir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Heydər Əliyev dünya azərbaycanlılarının müstəqil dövlətimiz ətrafında birləşmələri və Azərbaycan dövlətinin də onları himayədarlığı altına alması üçün misilsiz səylər göstərmişdir.

2001-ci ilin noyabr ayının 9 və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. Dünya Azərbaycanlılarının I qurultayında 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləş-

diyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə 406 nümayəndə və 63 qonaq iştirak etmişdi.(3, s.334)

Heydər Əliyev öz çıxışında qurultaya çox önəm verirdi. O, deyirdi: "Bu qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişaf etməsi sahəsində mühüm əhəmiyyətə malikdir və demək olar ki, müstəqil Azərbaycanın həyatında tarixi hadisədir. Bu gün keçirilən qurultay xaricdə yaşayan soydaşlarımızın daha da həmrəy olması, təşkilatlanması üçün yeni bir mərhələnin başlanğıcıdır." (3, s.21)

Dünya azərbaycanlılarının I qurultayının qəbul etdiyi qətnamədə deyilirdi: "Müstəqil Azərbaycan Respublikası dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, bütün azərbaycanlıların mənəvi dayağı, milli-mədəni maraqlarının ifadəçisidir. Azərbaycanın ərazi bütövlüyünün qorunması, müstəqil respublikaya hər hansı formada - daxildən, yaxud xaricdən göstərilən təcavüzün qarşısının alınması, onun demokratik, dünyəvi, hüquqi, milli bir dövlət olaraq inkişaf edib möhkəmlənməsi, yalnız respublika vətəndaşlarının deyil, habelə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, hər bir azərbaycanlının müqəddəs işidir".(3, s. 215)

Heydər Əliyevin "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 2002-ci il 5 iyul tarixli Fərmanı Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil şəkildə əlaqələndirilməsi və dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd oldu.(4, s.270) Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətinin milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirilməsinə imkan verdi.

2002-ci il dekabr ayının 27-də qəbul edilmiş "Xaricdə yaşayan azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu" XXI əsrdə xaricdə yaşayan soydaşlarımız və həmvətənlərimiz qarşısında çox geniş perspektivlər açaraq, onları ölkəmizin milli mənafeləri ətrafında daha sıx birləşdirməyə xidmət edir.(4, s. 292)

Həmin qanunda Dövlət Komitəsinin də qarşısında konkret vəzifələr qoyulmuşdur. Vacib məqamlardan biri də bundan ibarətdir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi bu tədbirlərin hər biri xaricdə yaşayan soydaşımızın milli maraqlarımızın gerçəkləşdirilməsində yaxından iştirakına təminat yaratmışdır. Tarixi Vətənimiz Azərbaycanın hüdudlarından kənarda məskunlaşmış milyonlarla soydaşımızın vahid bir amal ətrafında birləşdirilməsi istiqamətində mühüm addım atılmışdır.

Beləliklə, Xaricdə Yaşayan Azərbaycanlılarla Iş üzrə Dövlət Komitəsinin yaranması, Bakıda dünya azərbacyanlılarının birinci qurultayının keçiirliməsi, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması diaspor fəalyyətinə təkan verən ciddi amillər kimi xarakterizə oluna bilər. Göstərmək vacibdir ki, müasir dünya praktikasında diaspor ilə səmərəli işin aparılmasının 3 əsas modeli mövcuddur:

birincisi, repatriant. Bu ilk dövrlər üçün xarakterikdir. Fransa özünün xaricdəki müstəmləkələrini itirdikdən sonra repatriasiyanı tətbiq edirdi. 2006-cı ilin avqustunda son Livan müharibəsindən 2-3 gün sonra, dünyanın bir sıra inkişaf etmiş ölkəsindən – ABŞ, Kanada, Böyük Britaniyadan 800 yəhudi immiqrant məqsədyönlü şəkildə İsrailə köçürüldü. 2000-ci ildən başlayaraq, yalnız ABŞ-dan İsrailə 13 179 yəhudi köçmüşdür. Bu həmin dövr ərzində İsrailə mühacirət etmiş 224 641 yəhudinin 6%-i deməkdir. Sonralar bu praktika qüvvədən düşdü. Hazırda İsrail belə bu təcrübəni məhdudlaşdırmaqdadır. Bu gün İsrail dövləti həmvətənlərinin yaşadıqları ölkələrdə yaşamasında və öz mədəni irslərini orada davam etdirilməsində maraqlıdır. Yaxud Rusiya kimi bir ölkə üçün repatriasiya praktikası fəlakət olardı. Rus tədqiqatçılarının fikrincə, yaxın və

uzaq xaricdə yaşayan ruslar tam ruslar deyillər. Onların fərqli vərdişləri və baxışları var və onlar Rusiya şəraitinə çətinliklə uyğunlaşırlar. Estoniyanın Tartu şəhərindən olan professor İsakov "Ruslar Estoniyada" adlı kitabında yeni bir termin belə icad edərək, etnik mənsubiyyətindən asılı olmayaraq, bu ölkədə yaşayan bütün vətəndaşları "estlandiyalılar" adlandırır;(5, s.8-10)

ikinci model – həmvətənlərin hüqüq və azadliqlarının müdafiəsi. Bu sahədə macarların çox yaxşı təcrübələri var. Onlar hətta bunu öz Konstitusiyalarında da təsbit ediblər;

üçüncü model – günümüzdə ön plana keçən paternalist yanaşmadır. Milli maraqların müdafiə olunması və dövlətlərarası münasibətlərin inkişaf etdirilməsi üçün diasporun potensialından istifadə olunması. Çin, Yaponiya, Macarıstan bu modellə uğurla işləyirlər.

Reallıqda hər 3 model yanaşı fəaliyyət göstərə bilər, amma günümüzdə tendensiya üçüncünün xeyrinə dəyişməkdədir. Çində Dövlət İşləri İdarəsində ictimai təşkilat və fondları istiqamətləndirən xüsusi struktur, Macarıstanda XİN nəzdində iri bir bölmə, Azərbaycanda Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi vardır.

Azərbaycan diasporunun yaradılması və təşkilatlanması yönümündə Azərbaycan dövləti və cəmiyyəti məsuliyyət daşıyır və bununla bağlı fəaliyyətlərini o, üç istiqamətdə cəmləşdirməlidir:

1.Lobbinin yaradılması. Bu halda söhbət, diasporunun məskunlaşdığı ölkənin səciyyəvi xüsusiyyətlərindən getməlidir. Məsələn, Rusiyada Azərbaycanın və azərbaycanlıların maraqlarının lobbiləşdirilməsi tətbiqi əhəmiyyət kəsb etmir. Lobbiləşmənin hüquqi əsasları mövcud deyildir və lazımı məsələlərin həlli başqa mexanizmlərlə həll edilir, məsələn, azərbaycanlıların biznesi Rusiya hakimiyyətinin bütün sahələrini əhatə edir. İri bankirlər və kompaniya sahiblərinin azərbaycanlı soy adları burada öz danılmaz rolunu oynayır. Qeyd olunanlardan elə bir təsəvvür yaranmamalıdır ki, Kremllə Azərbaycan arasındakı münasibətlər şəffafdır və Azərbaycanla bağlı bir çox məsələlər diaspor ilə razılaşdırılır yaxud da tənzimlənir. Lakin bununla belə, çoxsaylı nümunələr sübut edir ki, Rusiya hökuməti diaspor ilə bağlı bir çox məsələləri Azərbaycan hökuməti ilə birgə həll etməyə cəhd göstərmişdir. Nümunə olaraq, Rusiyada 2007-ci ilin aprelin 1-dən qüvvəyə minən miqrasiya məhdudiyyətini göstərmək olar. Müvafiq qanuna əsasən, Rusiya vətəndaşı olmayanlar bu ölkənin ərazisində pərakəndə ticarətlə məşğul ola bilməzlər. Rusiya hökumətinin tətbiq etdiyi bu qanunu Azərbaycan hökuməti anlayışla qarşılamış və öz növbəsində, Moskva Azərbaycan hökumətinin də narahatçılığına hörmətlə yanaşaraq, situasiyaya nəzarət məqsədi ilə birgə monitorinq qrupu yaratmışdır. Beləliklə, azərbaycanlı miqrantlar problemi hər iki ölkə rəhbərliyinin nəzarəti altına alınmışdır.

2.İmicin formalaşdırılması. Mövcud məsələ ilə bağlı yaradılmış illyuziyalardan yaxa qurtarmaq lazımdır. Bir qrup ekspert tərəfindən aparılan müzakirələr siyasi elita arasında çaşqınlıq yarada bilər və onlar yanlış yönümdə addımlar ata bilərlər. Ölkənin imicinə dair bəzi informativ xarakterli problemlərə PR-ictimayyətlə əlaqələr vasitəsi ilə həll etmək olar. Lakin bu məsələnin yalnız PR(piar) vasitəsi ilə çözüləcəyi yanlış təsəvvürdür. Ölkənin imicini peşəkar siyasi texnoloqlar deyil, sıravi vətəndaşların, rəhbər işçilərin, məmurların, biznesmenlərin gündəlik fəaliyyətləri yaradır. Onlar ölkə daxilində siyasi, işgüzar abu-hava yaratmaqla, bunu təmin edirlər. Ona görə də bu yönümdə aparılacaq əsas iş, dövlət mexanizminin əsasını təşkil edən bürokratiyanın modernizasiyasıdır. Ölkə daxilində aparılacaq islahatlar onun imicinin yüksəldilməsinə daha çox xidmət edəcək, nəinki dünyanın məşhur KİV-ləri ilə yaradılmış münasibətlər və bahalı PR kampaniyalar.

3.Yeni elitanın tərbiyə edilməsi. Sovet dövründən fərqli olaraq, bu gün Azərbaycanda, mövcud demokratik inkişafın səviyyəsinə uyğun olaraq aşkar siyasi həyat mövcuddur. Azad rəqabət, seçkilər, dövlət hakimiyyətinə gəlmək üçün yeganə menxanizm seçilməklə, bu günkü Azərbaycanda demokratik abu-havanı təmin edir. Bu sistem yeni elitanı tərbiyə edir, kadrlar hazırlayır. Yeni Azərbaycan elitası dünya elitası sıralarına daxil olmağa hazır olamalıdır. ABŞ-ın və Avropanın nüfuzlu universitetlərində təhsil alan bir çox istedadlı gənclər Vətənə dönmür və qaldıqları ölkələrdə diaspor sıralarına daxil olurlar. Bu bir tərəfdən sevindirici fakt olsa da, digər tərəfdən gənclərimizin Vətənə dönməmələrinin öz səbəbləri də var. Bəzi dövlət məmurları mütəxəssisləri işə tanışlıq və qohumluq əlaqələrinə görə götürdükləri üçün, bu gənclərin bəziləri diqqətdən kənarda qalırlar. Lakin bu gün Azərbaycanın dövlət idarəçiliyində və biznesində qərb təhsilli və təcrübəli çoxlu mütəxəssis var və bu da ümid verir deyək ki, tez bir zamanda Azərbaycanda yeni elitalar öz fəaliyyətləri ilə töhfələrini verəcəklər. Bu istiqamətdə fəaliyyət çox vacibdir və bunu yaxın qonşumuz olan Türkiyənin tarixi təcrübəsi də artıq təsdiq edib. Belə ki, 70-ci illərdə türk vətəndaşları öz ölkələrinə müqayisəyə gəlməz dərəcədə kömək edirdilər. Ucuz işçi qüvvəsi kimi istifadə olunduqları Almaniyanın müxtəlif müəssisələrində çalışmaqla, onlar qazanclarının bir hissəsini vergi kimi ödədikləri halda, qalan hissəsini də uşaqlarının nüfuzlu Almaniya təhsil ocaqlarında oxumasına sərf edirdilər. Bir neçə növbədə işləmək məcburiyyətində olan türklər, öz investisiyalarını övladlarının təhsilinə qoyurdular və bu da onilliklərdən sonra öz müsbət nəticəsini göstərdi. Məhz həmin gənclər Türkiyə iqtisadiyyatının bayraqdarları oldular.

Öz növbəsində fəaliyyətlərini Ana Vətənləri ilə əlaqələndirən diasporlar, o cümlədən də Azərbaycan diasporu, fəaliyyət strategiyalarında bir çox vacib müddəalara da əsaslanmalıdırlar, çünki müvafiq strategiyalar klassik diasporların fəaliyyətlərindən bəhrələnmiş və tarixin sınaqlarından keçmişdir. Bunu tarixdə ən qədim diaspor olan yəhudi diasporunun fəaliyyətində daha əyani müşahidə etmək mümkündür. Belə ki, A.Aşkenazi yəhudi diasporunun 6 əsas strategiyasını aşağıdakı şəkildə təsnif edir:

1.Hərəkətlilik. İcma üzvlərinin böyük əksəriyyəti həm könüllü, həm də məcburən tez-tez coğrafi yerdəyişmələr etmişlər, yəni bir ölkədən digərinə, bir icmadan o birinə keçmişlər.

2.Əlaqələr şəbəkəsi. Yəhudilərin diaspor kimi fəallıqlarını və mövcudluqlarını qorumaları üçün onların müxtəlif icmaları arasında kommunikasiya şəbəkələrinin yaradılması vacib idi. Yəhudi diasporunun digərlərindən fərqi ondadır ki, onlar bütün hallarda elə ərazilər seçirdilər ki, o, həmin ölkənin kommunikasiya mərkəzi olmuş oldu. Müasir dövrdə bu Nyu–Yorkdursa, qədimdə bu Roma idi. Heç şübhəsiz ki, bu kommunikasiya şəbəkəsinin əlahiddə rolu var idi. O, təkcə yəhudi icmaları arasında davamlı əlaqələri qoruyub saxlamaqla qalmayıb, həmçinin, onları qəbul edən ölkələrdə yəhudilərin lazımi nüfuz və çəki qazanmalarına da kömək etdi.

3.İntuitiv əlaqə kodu. Bu kod özünün simvolikası olan ümumi bir mədəni kommunikativ koddur. Bu simvol bütün diaspor üzvləri tərəfindən eyni cür anlaşılır və qəbul edilir. Birlik və ümumi tarixi kök ideyaları heç bir zaman, coğrafi, sosial maneələrə baxmayaraq, nəsildən –nəsilə qibtə doğuracaq şəkildə ötürülmüşdür.

4.İmmanent siyasi konformizm. Çoxşaxəli əlaqələri və mövcud təşkilatları müqabilində yəhudi diasporu yaşadıqları ölkələrdə nüfuzlu hökmranlara və şəxslərə öz dostluqlarını və əməkdaşlıqlarını təklif etmişlər. Buna baxmayaraq, hakimiyyətə can atmaq, onu əldə etmək iddiaları nəzərəçarpacaq dərəcədə aşağı

olmuşdur. Bu məqamı da vurğulamaq lazımdır ki, yəhudi icmaları o dövlətlərdə uğurlu fəaliyyət göstərə bilirdilər ki, orada müəyyən etnik və dini universalizm mövcud olmuşdur. Keçmişdə buraya Roma, Osmanlı, Rus imperiyaları aid idisə, dövrümüzdə buraya polietnik hesab edilən ölkələr-ABŞ, Böyük Britaniya, Rusiya və s. aiddir.

5. Aşağı səviyyəli demoqrafik təmsilçilik. Yəhudilər heç zaman məskunlaşdıqları regionlarda çoxluq təşkil etməmişlər. Sayca böyük olan və genişlənən diaspor, müəyyən coğrafi regionda kök salmaqla, oranı nəzarətdə saxlamağa qabil olur, bu isə öz növbəsində öz tarixi vətənindən və köklərindən uzaqlaşmağa şərait yaradır. Bu halda həmçinin, assimilyasiya prosesləri də güclənir, yaxud da öz milli mədəniyyəti ilə özgə mədəniyyətin simbiozu parlaq müşahidə edilməyə başlayır. Baxmayaraq ki, onlara "sığınacaq" verən ölkələrin siyasi strukturlarında yəhudilər daima ən çoxsaylı azlıq olmuşlar, bununla belə yəhudi diasporu öz siyasi və mədəni muxtariyyətini qorumağa nail olmuş və assimilyasiyaya uğramamışlar. Eyni zamanda bu məqamı da xüsusi olaraq vurğulamaq lazımdır ki, yəhudi diasporu heç zaman o dərəcədə çoxsaylı olmamışdır ki, onları qəbul edən ölkələr bunda ciddi bir təhlükə görsünlər.

6. Mənsub olduğun ölkəyə güclü istəklə ifadə olunan bağlılıq mifi. A.Aşkenazinin fikrincə bu mif, bütün hallarda praqmatik məzmundan məhrumdur və müvafiq ərazidə üstünlük təşkil edən əhali və onların hökumətləri üçün heç bir təhlükə yaratmır. Lakin bu mifin mövcudluğu diasporların mühüm xüsusiyyətlərindən biridir. (6, s.13) Beləliklə, Azərbaycanın milli və dövlət identifikasiyasının inkişafı, dövlətimizlə çox milyonluq diasporumuz arasındakı mövcud münasibətlərin ahəngdarlığından çox asılıdır. Bu, Azərbaycanın müasir dünyaya siyasi və iqtisadi inteqrasiyasının rəhni ola bilər.

Diaspor bir millətin, xalqın xaricdəki varlığı deməkdir. Onu formalaşdırmaq dövlətin həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Təəssüflər olsun ki, 1991-1993-cü illər iqtidarını bu məsələ zərrə qədər düşündürməmişdi.

Bunun nəticəsi olaraq, həmin dövrdə xaricdəki soydaşlarımızla müstəqil dövlətimizin əlaqələri yox dərəcəsində idi. Həmvətənlərimiz ölkədə cərəyan edən prosesləri öyrənməyə o qədər də maraq göstərmirdilər. Ulu öndərimizin hakimiyyətə qayıdışı bu pərakəndəliyə, laqeyd münasibətlərə son qoydu. Onun xarici ölkəyə səfəri, bu səfər çərçivəsində həmvətənlərimizlə görüşləri onlarda Azərbaycana qarşı diqqət və maraq yaratdı. 29 yanvar 1995-ci ildə İsveçrədə yaşayan soydaşlarımızla görüşündə Heydər Əliyev deyirdi: "Mən istəyirəm ki, azərbaycanlılar harada yaşayırlar-yaşasınlar, əhalinin, cəmiyyətin aşağı təbəqəsində, orta təbəqəsində yox, yüksək təbəqəsində olsunlar, bu, mənim istəyim, arzumdur.(4, s.34)

Bu gün nahar vaxtı İrlandiyanın prezidenti xanım Meri Robinson ilə yanaşı əyləşmişdik. Söhbət zamanı o mənə dedi ki, İrlandiyanın iki xüsusiyyəti var. Biri odur ki, İrlandiya heç vaxt imperiya olmayıb, həmişə müstəmləkə olmuşdur. İkinci xüsusiyyəti odur ki, 150 il bundan öncə İrlandiyada kartof aclığı düşmüşdü. Bu səbəbdən 4 milyon irlandiyalı ölkəni tərk edib başqa yerlərə getmişdi. Ona görə də indi kənarda yaşayan irlandiyalıların sayı ölkədəkindən daha çoxdur. Xanım Robinson bildirdi ki, bu il həmin hadisənin 150 illiyini qeyd edəcəkdir. Mən dedim ki, bilmirəm, siz bunu hansı səpkidə qeyd edəcəksiniz, ancaq belə hesab edirəm ki, o hadisə 150 il bundan əvvəl sizdən ötrü bir faciə idisə, eyni zamanda, xalqınız üçün böyük xoşbəxtlik olmuşdur. Çünki xalqınız bütün dünyaya, xüsusən Amerika Birləşmiş Ştatlarına, Avropanın müxtəlif ölkələrinə yayılmışdır. İndi irlandiyalılar çox böyük lobbi yaratmışlar, kiçik dövlət olan İrlandiyanın xaricdə böyük lobbisi var. Mən də o vaxtlar azərbaycanlıları faciə nəticəsində deyil, başqa yolla Sovetlər İttifaqına səpələyib Azərbaycana dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılmışdır, azərbaycanlı hər yerdə yaşaya bilər. Hər bir ölkədə

nə qədər çox azərbaycanlı yaşasa, bir o qədər yaxşı olar. Əlbəttə, bununla onu demək istəmirəm ki, Azərbaycanda yaşayan adamlar başqa ölkələrə çıxıb getsinlər, yox, ancaq tale kimi isə gətirib bir ölkəyə çıxarıbsa və orada o, yaxşı yaşayırsa, yaxşı təhsil alıbsa, yaxşı işi varsa, bu, Azərbaycanın xeyrinədir. Bir şərtlə ki, gərək millətini, dinini, torpağını, ana Vətəni unutmayasan. Bilirsiniz, ermənilər harada yaşasalar da Ermənistana gedirlər. Ermənistanı ziyarət edirlər, sonra isə deyirlər ki, biz getdik, torpağımızı ziyarət etdik. Axı, sizin də Vətəniniz var. O, hamımızın Vətənidir. Bu, müstəqil Azərbaycan Respublikasıdır". (4, s.35)

### *ƏDƏBİYYAT*

1."Azərbaycan", 4 yanvar 2005-ci il
2.Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ. Bakı. Çaşıoğlu, 2006. 172s.
3.Dünya Azərbaycanlılarının I qurultayı (9-10 noyabr 2001-ci il.)Bakı. Azərbaycan nəşr., 2002, 351 s.
4.Azərbaycan diasporuna dövlət qayğısı. Bakı. Çaşıoğlu, 2003. 304s.
5.Градировский С. Искушение диаспоральной политикой //Содружество НГ. 1999 г. №10, с.11
6.Попков В.Д. Феномен этнических диаспор. М.: ИС РАН, 2003, с.13

**АГИЛЬ ТАГИЕВ**

### РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ОБЕСПЕЧЕНИИ ЕДИНСТВА АЗЕРБАЙДЖАНЦЕВ МИРА

После того, как Азербайджан стал равноправным членом мирового сообщества, создалось условия для координации деятельности Азербайджанцев мира из единого центра. Азербайджанцы, проживающие в разных уголках мира, начали активно задействовать в направлении обеспечения национальных интересов Азербайджанского государства. Огромную роль в организации единой деятельности Азербайджанцев мира сыграл Общенациональный Лидер Гейдар Алиев. Будучи председателем Верховного Совета Нахичеванской Автономной Республики он объявил 31 декабря днем солидарности Азербайджанцев мира. В дальнейшем этот день стал общенациональным праздником Азербайджанского народа. Начиная с 31 декабря 1991 года празднование этого дня на государственном уровне, является явным признаком внимания на Азербайджанскую диаспору со стороны государства.

**AGHIL TAGHIYEV**

### ROLE OF THE AZERBAIJAN REPUBLIC IN COORDINATION OF ACTIVITY OF AZERBAIJANIANS OF THE WORLD

After Azerbaijan became a member of the world community equal in rights, was created conditions for coordination of activity of Azerbaijanians of the world from the uniform centre. The Azerbaijanians living in different corners of the world, have started to involve in a direction of maintenance of national interests of the Azerbaijan state actively. A huge role the organisations of uniform activity of Azerbaijanians of the world were played by the National Leader Haydar Aliyev. Being the chairman of the Supreme body of the Nakhichevan Autonomous republic it declared on December, 31st in the afternoon of solidarity of Azerbaijanians of the world. Further this day became a national holiday of the Azerbaijan people. Since December, 31st, 1991 celebrating of this day at the state level, is an obvious sign of attention to the Azerbaijan diaspora from outside the states.

***Rəyçilər: t.e.d.X.Köçərli, t.e.d.M.C.Qasımov.***

***ADPU Azərbaycan tarixi kafedrasının 11 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №11).***